Salam, əziz və hörmətli dost. Mən də sənin kimi xeyirxah və sülhpərvər bir cavanam və səni öz əhvalatımı danışıb ölkələrimiz arasındakı münasibətləri və onun həlli haqqında fikrimi bildimək istərdim.

Mən qarabağlı ailəsində dünyaya gəlmişəm və atam Qarabağ müharibəsində iştirak etmişdir. Ailəmizə həmişə anti-Azərbaycan mövqe və əhval-ruhiyyə var idi. Bütün bunlar aprel hadisələri zamanı daha da güclənib. O vaxt mən əsgərlikdə idim. Xidmətimi başa vurduqdan sonra mən Moskvaya əmimin yanına getməli idim və həmin səfər mənim düşüncə tərzimə böyük təsir bağışlayıb. Orada mən qardaşımın doztu olan azərbaycanlı bir cavanla tanış oldum. Onunla ünsiyyət quraraq və onu tanıyaraq mən başa düşdüm və dərk elədim ki, ölkələrimiz bir birini yalnız dövlət səviyyəsində sevmir və hər cür təbliğat aparırlar ki xalqlar arasında ədavət salsınlar. Axı biz istəmirik ki, ailələrimizdə şəhidlər ola, əksinə sən də mənim kimi çiçəklənən cavansan, gələcəyimiz bizim əllərimizdədir və sülhdən savayı heç kimə heç nə lazım deyil. Belədirsə niyə sülh naminə mübarizə aparmayaq? Bir anlıq təsəvvür elə ki, biz dost ölkələrik, illər əvvəl olduğu kimi, o vaxt biz hələ anadan olmamışdıq. O vaxt hər şey möhtəşəm idi, əmin-amanlıq var idi. Tikanlı məftillər bizi ayrırmırdı, elə bu səbəbdən dolayı biz bütün mümkün sülh variantlarından istifadə edərək həmin dövrü bərpa etməliyik. Mən bütün dostlarıma çağrış edirəm ki, onlar da sülh yolu oğrunda mübarizə aparsınlar. Əminəm ki, eynisini sən də edərsən ona görə ki, sülh gələcəyə bir addam daha yaxınlaşaq.

Hörmətlə erməni gənc Arayik